**1. İslam aləmində və türk dünyasında demokratik idarə üsulunu tətbiq etmiş ilk Respublika:**
A) Osmanlı dövləti
B) Qazaxıstan Respublikası
C) Azərbaycan Cümhuriyyəti
D) Türkiyə Cümhuriyyəti
E) Türkmənistan Respublikası
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** VaqifPriyev. Azərbaycanın tarixi-siyasi coğrafiyası, Bakı-2006

**2. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti hansı şəhərlərdə fəaliyyət göstərmişdir?**
A) Şuşada, Zaqatalada, Gəncədə
B) Tiflisdə, Gəncədə, Bakıda
C) Naxçıvanda, Bakıda
D) Qarabağda, Gəncədə, Bakıda
E) İrəvanda, Gəncədə, Bakıda
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** VaqifPriyev. Azərbaycanın tarixi-siyasi coğrafiyası, Bakı-2006

**3. Azərbaycan Respublikasının XXI əsr tarixinə aiddir:**
A) Ali təhsil müəssisələrində bakalavr və magistr pilləli təhsil sisteminə keçilməsi
B) “Heydər Əliyev” ordeninin təsis edilməsi haqqında qanunun qəbul edilməsi
C) Heydər Əliyevin ikinci dəfə Azərbaycan Respublikasının Prezidenti seçilməsi
D) Azərbaycanda ilk dəfə Bələdiyyə seçkilərinin keçirilməsi
E) Heydər Əliyevin birinci dəfə Azərbaycan Respublikasının Prezidenti seçilməsi
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** İradə Nuriyeva. Azərbaycan tarixi. Bakı-2015

**4. Vətəndaşların əsas azadlıqlarından biri deyil:**
A) Məlumat azadlığı
B) Milli mənsubiyyət azadlığı
C) Vicdan azadlığı
D) Yaradıcılıq azadlığı
E) Sərbəst toplaşmaq azadlığı
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**5. Ölkədə iqtisadi transformasiyanın başlanmasına imkan verən "İqtisadi müstəqillik haqqında" Konstitusiya qanununun qəbul edilməsi, milli valyuta - manatın dövriyyəyə buraxılması hansı islahatların aparılması sahəsində görülən işlərə daxildir?**
A) 1991 - 93-cü illərdə iqtisadi islahatlar

B) 1996-cı ildə aqrar islahatlar
C) 1994 - 99 cu illərdə iqtisadi islahatlar
D) 1995 - 98-ci illərdə vergi islahatları
E) 1993 - 97-ci illər aqrar islahatlar
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** İqtisadiyyat. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident kitabxanası http://files.preslib.az/projects/azerbaijan/gl4.pdf 03.11.18

**6. SOCAR-ın tərkibinə daxil olan struktur vahid hansıdır?**
A) Geologiya və Geofizika İnstitutu
B) British Petroleum şirkəti
C) Dövlət Neft Fondu
D) Neft-Kimya Prosesləri İnstitutu
E) Neftqazelmitədqiqatlayihə İnstitutu
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:**http://socar.az/socar/az/company/organization/azerbaijan-oil-industry-journal 30.10.2018

**7. Avropa-Qafqaz-Asiya arasında nəqliyyat dəhlizinin inkişafını başlıca məqsəd kimi nəzərdə tutan bəyannamə:**
A) TANAP layihəsi çərçivəsində qəbul edilmiş İstanbul Bəyannaməsi
B) Cənub Dəhlizi proqramı çərçivəsində qəbul edilmiş Bakı Bəyannaməsi
C) Trans-Avrasiya Magistralı layihəsi çərçivəsində qəbul edilmiş Bişkek Bəyannaməsi
D) TRASEKA proqramının çərçivəsində qəbul edilmiş Brüssel Bəyannaməsi
E) Bakı-Tbilisi-Qars (BTQ) layihəsi çərçivəsində qəbul edilmiş Tbilisi Bəyannaməsi
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** İqtisadiyyat. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident kitabxanası http://files.preslib.az/projects/azerbaijan/gl4.pdf 03.11.18

**8. Prezident Heydər Əliyevin təşəbbüsü ilə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Minsk qrupu yaradılmışdır:**
A) Bakı sammitində
B) Lissabon sammitində
C) İstanbul sammitində
D) Astana sammitində
E) Budapeşt sammitində
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** İradə Nuriyeva. Azərbaycan tarixi. Bakı-2015

**9. Hansı sənədlə Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyi rəsmən elan edildi?**
A) Azərbaycan Parlamentinin qanunnaməsi
B) F. Xoyskinin Sərdliyi ilə Daxili İşlər Nazirliyinin Bəyanatı
C) Azərbaycan Respublikasının Konstitusiyası

D) Azərbaycanın İstiqlal Bəyannaməsi
E) Bakı Bəyannaməsi
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** Yaqub Mahmudov. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası I cild, Bakı-2004

**10. Çıraq yatağından hasil olunan neft hansı ad altında Supsa limanından dünya bazarlarına ixrac edilir?**
A) “Shapur”
B) "Azəri Layt"
C) “Gold Baku”
D) “Azpetrol”
E) "AzNeft"
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** İqtisadiyyat. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident kitabxanası http://files.preslib.az/projects/azerbaijan/gl4.pdf 03.11.18

**11. Azərbaycan Respublikasında, o cümlədən Xəzər dənizinin Azərbaycan sektorunda neft-qaz ehtiyatlarının kəşfiyyatı və işlənməsinə dair sazişlərin həyata keçirilməsindən Azərbaycan Respublikasının əldə etdiyi valyuta və digər vəsaitlərin yığılması, səmərəli idarə və istifadə olunması məqsədi ilə yaradıldı:**
A) Sahibkarlığa Kömək Milli Fondu
B) Vahid Valyuta Fondu
C) Dövlət Ehtiyat Fondu
D) Azərbaycan Əmanətlərin Sığortalanması Fondu
E) Dövlət Neft Fondu
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** İqtisadiyyat. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident kitabxanası http://files.preslib.az/projects/azerbaijan/gl4.pdf 03.11.18

**12. Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında imzalanan Saziş:**
A) Əsrin müqaviləsi
B) Gülüstan müqaviləsi
C) Bakı-Tbilisi-Ceyhan müqaviləsi
D) Türkmənçay müqaviləsi
E) Şahdəniz müqaviləsi
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** https://president.az/azerbaijan/contract 13.10.2018

**13. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Nazirlər Şurasının sədri və daxili işlər naziri idi:**
A) Məmməd Həsən Hacınski
B) Xosrov Paşa bəy Sultanov

C) Məhəmməd Yusif Cəfərov
D) Fətəli Xan Xoyski
E) Nəsib bəy Yusifbəyli
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** Yaqub Mahmudov. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası I cild, Bakı-2004

**14. "İstiqlal Bəyannaməsi"nin elan olunmasının 1-ci ildönümü münasibətilə 1919-cu ildə Bakıda buraxılmışdır:**
A) İqbal qəzeti
B) Dirilik jurnalı
C) Qurtuluş jurnalı
D) Açıq söz qəzeti
E) İstiqlal toplusu
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** Vaqif Priyev. Azərbaycanın tarixi-siyasi coğrafiyası, Bakı-2006

**15. Xam neftin «Bakı-Tbilisi-Ceyhan» əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair hökumətlərarası saziş imzalandı:**
A) ATƏT-in Bakı zirvə görüşü zamanı
B) ATƏT-in İstanbul zirvə görüşü zamanı
C) ATƏT-in Lissabon zirvə görüşü zamanı
D) ATƏT-in Budapeşt zirvə görüşü zamanı
E) ATƏT-in Astana zirvə görüşü zamanı
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** İqtisadiyyat. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident kitabxanası http://files.preslib.az/projects/azerbaijan/gl4.pdf 03.11.18

**16.Azərbaycan Respublikasının Konstitusiyasına əsasən təbii ehtiyatlar mənsubdur:**
A) Satınalmalar üzrə Dövlət Agentliyinə
B) Fiziki və ya hüquqi şəxslərə
C) Azərbaycan Respublikasına
D) Ekologiya və Təbii Sərvətlər Nazirliyinə
E) Azərbaycan Respublikasının hər bir vətəndaşına
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**17. Azərbaycan Parlamentinin açılışı hansı dövrə təsadüf edir?**
A) Hərbi-siyasi tənəzzül dövrünə
B) İnqilab dövrünə
C) Cümhuriyyət dövrünə
D) XX yüzilliyin son iki onilliyinə
E) Respublika dövrünə
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** Tarix:

https://static2.president.az/media/W1siZiIsIjIwMTgvMDMvMDkvMjdqcmMyYnlkcV9UYXJpeF9BWkUucGRmIl1d?sha=57585abf41021647

**18. 2017-ci il noyabr ayı Azərbaycanın neft sənayesi üçün tarixi hadisədir:**
A) 2 milyardıncı ton neft hasil olundu
B) Sənaye üsulu ilə ilk neft quyusu qazıldı
C) Neft hasilatı üzrə dünyada birinci yerə sahib oldu
D) "Çıraq" platformasından neft hasilatına başlandı
E) "Əsrin" müqaviləsinin müddəti uzadıldı
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** http://ikisahil.az/?page=3&newsId=55183&lang=aze -13.10.2018

**19. 1919-cu ildə dahi bəstəkar Üzeyir Hacıbəyli və şair Əhməd Cavad tərəfindən tərtib olunmuş "Azərbaycan marşı" Azərbaycanın Dövlət himni kimi təsdiq edildi:**
A) 1992-ci il mayın 27-də parlamentin qəbul etdiyi "Azərbaycan Respublikasının Dövlət himni haqqında" qanun ilə
B) 1990-cı il yanvarın 19-da Konstitusiya qanunu ilə
C) 1920-ci il yanvarın 30-da Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının "Azərbaycan Respublikasının Dövlət himni haqqında" qərarı ilə
D) 1998-ci il martın 2-də Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi "Azərbaycan Respublikasının Dövlət himni haqqında" əsasnamə ilə
E) 1999-cu il fevralın 5-də Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** https://president.az/azerbaijan/symbols 12.10.2018

**20. Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında göstərilənlərdən biri yanlışdır:**
A) Dövlət bayrağı hərbi andiçmə mərasimində qaldırıldığı halda, hərbi gəmilərə dövlət mükafatları təqdim edildikdə qaldırılmır
B) Prezident İlham Əliyevin 2009-cu il tarixli Sərəncamı ilə hər il noyabrın 9-u ölkədə Dövlət Bayrağı Günü kimi qeyd edilir
C) Bayrağın rəngli təsvirinin çapı "Panton" rənglər kataloqunun müvafiq rəng çalarlarına uyğun olaraq təmin edilməlidir
D) 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi təsdiq edilib
E) Bayrağın hər iki üzündə, qırmızı zolağın ortasında ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** https://president.az/azerbaijan/symbols 12.10.2018

**21. Azərbaycan Respublikasının Dövlət gerbi haqqında göstərilənlərdən biri yanlışdır:**
A) Dövlət gerbinin rəngli təsvirində ulduz ağ, alov qırmızı, palıd budaqları yaşıl, sünbüllər sarı rəngdədir
B) Dövlət gerbi 1993-cü il yanvarın 19-da Konstitusiya qanunu ilə təsdiq edilib

C) Dövlət gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən Şərq qalxanının təsvirindən ibarətdir
D) Müasir Dövlət gerbi Cümhuriyyət dövründə yaradılmış gerb layihəsinin müəyyən dəyişikliklər edilmiş formasıdır
E) Qalxanın və ulduzun sağanaqları, habelə qalxanın düymələri və palıd qozaları sarıdır
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** https://president.az/azerbaijan/symbols 12.10.2018

**22. 1920-ci ildən sonra Azərbaycanda neft sənayesini inkişaf etdirmək üçün təşkil edildi:**
A) "Azərineft"
B) “Azərneftkom”
C) "Azər Layt"
D) "Azərtac"
E) "Azərsu"
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** E.M. Hacızadə Z.S.Abdullayev. Neft təsərrüfatının iqtisadi strukturunun modernizasiyası, Bakı-2003

**23. Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" qaz-kondensat yatağından hasil edilən təbii qaz hansı qaz boru kəməri ilə Türkiyənin qaz kəmərləri sisteminə daxil olur?**
A) Bakı-Nova-Filya
B) Bakı -Tbilisi-Qars
C) Bakı-Samsun-Ceyhan
D) Bakı-Tbilisi-Ərzurum
E) Bakı-Batum-Kərkük
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** İqtisadiyyat. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident kitabxanası http://files.preslib.az/projects/azerbaijan/gl4.pdf 03.11.18

**24. Müsəlman Şərqində ilk dünyəvi qızlar məktəbi kimin təşəbbüsü ilə yaradılıb?**
A) Hacı Zeynalabdin Tağıyevin
B) Həsən bəy Zərdabinin
C) Ağa Musa Nağıyevin
D) Şəmsi Əsədullayevin
E) Yusif ağa Dadaşovun
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** Manaf Süleymanov. Azərbaycan Milyonçuları: Hacı Zeynalabdin Tağıyev, Bakı-Gənclik-1996

**25. Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradıldı və sonralar onun ərazisində -yaradıldı:**
A) 27 aprel 1920, Dağlıq Qarabağ Muxtar Vilayəti

B) 18 oktyabr 1991, Azərbaycan Milli Hökuməti
C) 28 aprel 1920, Azərbaycan Sovet Sosialist Respublikası
D) 28 may 1990, Müsəlman şərqində ilk parlament Respublikası
E) 28 aprel 1920, Azərbaycan Demokratik Respublikası
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** Vaqif Priyev. Azərbaycanın tarixi-siyasi coğrafiyası, Bakı-2006

**26. Hacı Zeynalabdin Tağıyevin sahibkarlıq fəaliyyətinə aid deyil:**
A) 1894-cü ildə ilk milli kitabxananın əsasını qoydu
B) 1897-ci ildə isə Qafqazda ilk toxuculuq istehsalatı olan toxuculuq fabriki açır
C) H. Z. Tağıyev toxuculuq, balıqçılıq və neft sənayesində sahibkarlıq fəaliyyəti ilə məşğul olmuşdur
D) 1909-cu ildə Cavadda pambıqtəmizləmə zavodu tikdirir
E) 1883-cü ildə Azərbaycanda ilk milli teatr binasını inşa etdirir
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** Manaf Süleymanov. Azərbaycan Milyonçuları: Hacı Zeynalabdin Tağıyev, Bakı-Gənclik-1996

**27. Hansı çaylar Azərbaycan və Gürcüstan sərhəddi boyunca axır?**
A) Meğri və Katex çayları
B) Qanıx və Qabırrı çayları
C) Kür və Samur çayları
D) Gömür və Əylis çayları
E) Araz və Ağsu çayları
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** M.A Müseyibov. Azərbaycan fiziki coğrafiyası, Bakı-1998

**28. "Əsrin müqaviləsi" haqqında fikirlərdən biri yanlışdır:**
A) “Əsrin müqaviləsi”ndə dünyanın 7 ölkəsini təmsil edən 11 beynəlxalq neft şirkəti iştirak etmişdir
B) “Əsrin müqaviləsi”Prezident İlham Əliyevin rəhbərliyi ilə 1994-cü il sentyabrın 20-də imzalanıb
C) Azərbaycanın XX əsr tarixində siyasi, iqtisadi və strateji əhəmiyyətinə görə ən mühüm müqavilələrindən biridir
D) “Əsrin müqaviləsi”ndə Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç və Səudiyyə Ərəbistanı təmsil edən neft şirkətləri iştirak etmişdir
E) 1994-cü il dekabrın 12-də Milli Məclis “Əsrin müqaviləsi”ni ratifikasiya etdi
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** https://president.az/azerbaijan/contract 13.10.2018

**29. Relyefinə və hidroloji xüsusiyyətlərinə görə Xəzər dənizi (gölü) hansı hissələrə bölünür?**
A) Şimali Xəzərə, Orta Xəzərə və Cənubi Xəzərə
B) Cənubi Xəzərə, Şərqi Xəzərə və Qərbi Xəzərə
C) Qərbi Xəzərə, Orta Xəzərə və Şərqi Xəzərə
D) Şimali Xəzərə, Şərqi Xəzərə və Cənubi Xəzərə

E) Qərbi Xəzərə, Orta Xəzərə və Cənubi Xəzərə
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** E. Hacızadə. Neft təsərrüfatının iqtisadi strukturunun modernizasiyası http://elibrary.bsu.az/yenii/ebookspdf/neft_təsərrüfatının_iqtisadi.pdf 30.10.18

**30. "Yeni Əsrin müqaviləsi" "Əsrin müqaviləsi" imzalandıqdan neçə il sonra imzalanmışdır?**
A) 21
B) 27
C) 15
D) 23
E) 7
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** https://president.az/pages/11/print 17.10.2018

**31. Azərbaycanda hava nəqliyyatı açılmışdır:**
A) XX əsrin 20-ci illərində
B) XXI əsrin əvvəllərində
C) XX əsrin 80-ci illərində
D) XVII əsrin sonlarında
E) XX əsrin 90-cı illərində
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** E. Hacızadə. Neft təsərrüfatının iqtisadi strukturunun modernizasiyası http://elibrary.bsu.az/yenii/ebookspdf/neft_təsərrüfatının_iqtisadi.pdf 30.10.18

**32. 2017-ci il sentyabrın 14-də Azərbaycanın neft strategiyasının yeni mərhələsinin əsasını qoyan hansı müqavilə imzalanmışdır?**
A) Bakı-Novorossiysk müqaviləsi
B) Şahdəniz müqaviləsi
C) Bakı-Tbilisi-Ərzurum müqaviləsi
D) Yeni Əsrin müqaviləsi
E) Bakı-Tbilisi-Ceyhan müqaviləsi
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** https://president.az/azerbaijan/contract 17.10.2018

**33. Respublikamızda hansı qoruq tarixi-təsviri sənət qoruğudur?**
A) Qızılağac qoruğu
B) Şirvan qoruğu
C) Qobustan qoruğu
D) Altıağac qoruğu
E) Hirkan qoruğu
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** M.A Müseyibov. Azərbaycan fiziki coğrafiyası, Bakı-1998

**34. Dağlıq Qarabağın Azərbaycan ərazisindən ayrılması istiqamətində atılmış birinci addım hesab olunur:**

A) Bişkek protokolunun imzalanması
B) Dağlıq Qarabağ Muxtar Vilayətinin ləğv olunması
C) Türkmənçay müqaviləsinin imzalanması
D) Azərbaycan SSR-in ilk Konstitusiyasının qəbul olunması
E) Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:**Tarix
https://static2.president.az/media/W1siZiIsIjIwMTgvMDMvMDkvMjdqcmMyYnlkcV9UYXJpeF9BWkUucGRmIl1d?sha=57585abf41021647 31.10.18

**35. "Əsrin müqaviləsi"nin iyirmi illiyində hansı layihənin təməlqoyma mərasimi keçirilib?**
A) Çıraq Neft layihəsinin
B) Bakı-Novorossiysk Neft Kəməri layihəsinin
C) "Cənub Qaz Dəhlizi" layihəsinin
D) Qərb İxrac Boru Kəməri layihəsinin
E) Bakı-Tbilisi-Ceyhan Neft Kəməri layihəsinin
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** https://president.az/pages/11/print 17.10.2018

**36. 1916-cı ildə M.Maqomayev Azərbaycan opera sənətinin qızıl fonduna daxil olmuş hansı operasını yaratdı?**
A) "Şeyx Sənan"
B) "Leyli və Məcnun"
C) "Şah İsmayıl"
D) "Natəvan"
E) "Əsli və Kərəm"
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** İradə Nuriyeva. Azərbaycan tarixi. Bakı-2015

**37. TANAP (Trans-Anadolu təbii qaz boru kəməri) layihəsinə aid fikirlərdən biri yanlışdır:**
A) Saziş Azərbaycan Respublikasının Prezidenti və Türkiyə Respublikasının Baş nazirinin təşəbbüsü ilə Azərbaycan ilə Türkiyə arasında imzalanıb
B) "Cənub Qaz Dəhlizi"nin tərkib hissəsinə daxil olan layihələrdən biridir
C) TANAP boru kəmərinin 2020-ci ildə istismara verilməsi planlaşdırılır
D) Saziş 2012-ci il iyun ayının 26-da İstanbul şəhərində imzalanmışdır
E) TANAP layihəsi Şahdəniz qazını Türkiyə ərazisi boyunca nəql edəcək
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** https://president.az/pages/11/print 17.10.2018

**38. Azərbaycan Respublikasının Rusiya Federasiyası ilə sərhəddə yerləşən inzibati rayonları:**
A) Balakən, Siyəzən, Xudat, Qazax
B) Xaçmaz, Quba, Beyləqan,
C) Qax, Qəbələ, İsmayıllı

D) Şəki, Oğuz, Qəbələ, Qusar, Xaçmaz
E) Zaqatala, Saatlı, Yardımlı
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** İqtisadiyyat. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident kitabxanası http://files.preslib.az/projects/azerbaijan/gl4.pdf 19.10.2018

**39. Təbii qazı Azərbaycandan Avropa bazarlarına ixrac etmək üçün ən qısa və birbaşa yol kimi seçilmiş layihə:**
A) "Şəfəq-Asiman" layihəsi
B) TAP (Trans-Adriatic-Pipeline) layihəsi
C) "Transxəzər qaz kəməri" layihəsi
D) "Qərb İxrac Boru Kəməri" layihəsi
E) "Bakı-Tbilisi-Ceyhan" (BTC) layihəsi
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** https://president.az/pages/11/print 17.10.2018

**40. Azərbaycan respublikasının ən böyük orfoqrafik vahidlərinə daxildir:**
A) Ləngəbiz-Ələt ön dağlıqları
B) Kiçik Qafqaz dağları
C) Şahdağ-Xızı sinklinoriumu
D) Şərqi Göyçə silsiləsi
E) Qarabağ vulkan yaylası
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** M.A Müseyibov. Azərbaycan fiziki coğrafiyası, Bakı-1998

**41. Azərbaycan Respublikası ilə həmsərhəd deyil:**
A) Şimalda Rusiya Federasiyasının Dağıstan respublikası
B) Cənubda Ermənistan və Türkiyə respublikaları
C) Şimal-qərbdə Gürcüstan respublikası
D) Cənubda İran İslam respublikası
E) Qərbdə Ermənistan və Türkiyə respublikaları
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** M.A Müseyibov. Azərbaycan fiziki coğrafiyası, Bakı-1998

**42. Respublikamızın tranzit çaylarını müəyyən edin:**
A) Araz, Qusarçay, Pirsaat
B) Oxçu, Vəlvələçay, Qanıx
C) Kür, Arpaçay, Samur
D) Tovuzçay, Araz, Sumqayıtçay
E) Türyançay, Kür, Qaraçay
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** M.A Müseyibov. Azərbaycan fiziki coğrafiyası, Bakı-1998

**43. Respublika ərazisində çay şəbəkəsi necə paylanmışdır?**
A) Sıx
B) Qeyri-bərabər

C) Şaxəli
D) Bərabər
E) Gursulu
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** M.A Müseyibov. Azərbaycan fiziki coğrafiyası, Bakı-1998

**44. Respublikamızda "Azərbaycan əlifbası və Azərbaycan dili günü" hər il təqvimin hansı günü qeyd edilir?**
A) 1 iyun
B) 15 oktyabr
C) 1 avqust
D) 9 noyabr
E) 20 sentyabr
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** İradə Nuriyeva. Azərbaycan tarixi. Bakı-2015

**45. Xəzər dənizi (gölü) hansı ölkənin ərazisinə düşmür?**
A) Qazaxıstanın
B) Rusiyanın
C) Türkmənistanın
D) Azərbaycanın
E) Türkiyənin
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** M.A Müseyibov. Azərbaycan fiziki coğrafiyası, Bakı-1998

**46. Hansı göl 1139-cu ildə Gəncə zəlzələsi nəticəsində yaranmışdır?**
A) Qara göl
B) Sarı göl
C) Ağ göl
D) Nohur göl
E) Göygöl
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** M.A Müseyibov. Azərbaycan fiziki coğrafiyası, Bakı-1998

**47. Azərbaycan ərazisindən axan ən uzun çaylar hansılardır?**
A) Qusarçay və Tərtərçay
B) Kür və Araz çayları
C) Samur və Terek çayları
D) Viləşçay və Vəlvələçay
E) Volqa və Ural çayları
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** M.A Müseyibov. Azərbaycan fiziki coğrafiyası, Bakı-1998

**48. Aşağıda göstərilən fikirlərdən biri yanlışdır:**
A) 1873-cü ildə Azərbaycanın ilk milli teatrı yaradıldı
B) Yaxın Şərqdə ilk metropoliten 1970-ci ildə Bakıda açıldı

C) 1875-ci ildə Azərbaycanın ilk qəzeti nəşr olundu
D) 1886-cı ildə Bakıda ilk telefon stansiyası tikildi
E) 1908-ci ildə Şərqdə ilk opera "Leyli və Məcnun" tamaşaya qoyuldu
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** İqtisadiyyat. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident kitabxanası http://files.preslib.az/projects/azerbaijan/gl4.pdf 19.10.2018

**49. Kür çayının ən böyük qolu hansı çaydır?**
A) Terek çayı
B) Araz çayı
C) Tərtər çayı
D) Samur çayı
E) Pirsaat çayı
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** M.A Müseyibov. Azərbaycan fiziki coğrafiyası, Bakı-1998

**50. Azərbaycanda unikal təbii abidələrdən biri olan "Yanardağ" hansı rayonun ərazisində yerləşir?**
A) Ağdam rayonunun
B) Neftçala rayonunun
C) Abşeron rayonunun
D) Zərdab rayonunun
E) Masallı rayonunun
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** İqtisadiyyat. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident kitabxanası http://files.preslib.az/projects/azerbaijan/gl4.pdf 19.10.2018

**51. Aran iqtisadi rayonu hansı inzibati rayonları əhatə edir?**
A) Neftçala, Gəncə, Saatlı, Sabirabad,
B) Beyləqan, Şuşa, Tərtər, Lerik
C) Astara, Qazax, Ağdaş, Neftçala,
D) Beyləqan, Bərdə, İmişli, Kürdəmir
E) Salyan, Ucar, Quba, Ağcabədi
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** İqtisadiyyat. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident kitabxanası http://files.preslib.az/projects/azerbaijan/gl4.pdf 19.10.2018

**52. Azərbaycan vaxtı ilə Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinə əsasən Rusiya tərəfindən işğal olunmuş Şimali Azərbaycan torpaqlarının qanuni varisi olduğunu bəyan etdi:**
A) Azərbaycan respublikasının Konstitusiyasında
B) F.Xoyskinin Sərdliyi ilə Daxili İşlər Nazirliyinin Bəyanatında
C) Azərbaycan Xalq Cümhuriyyətinin İstiqlal Bəyannaməsində
D) Azərbaycan və Rusiya İmperiyası arasında bağlanmış "Kürəkçay" müqaviləsində
E) Azərbaycan Parlamentinin qanunnaməsində

**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** Prezident kitabxanası. Dağlıq Qarabağ münaqişəsi. Bakı-2005

**53. Daşnakların Bakı ilə yanaşı soyqırım törətdikləri ərazilərə daxil deyil:**
A) Quba
B) Zəngəzur
C) Şamaxı
D) Gəncə
E) İrəvan
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** Prezident kitabxanası. Dağlıq Qarabağ münaqişəsi. Bakı-2005

**54. Azərbaycan Respublikasının Lənkəran iqtisadi rayonu hansı inzibati rayonları əhatə edir?**
A) Cəlilabad, Qazax, Xankəndi, Ağstafa və Masallı
B) Kürdəmir, Yardımlı, Yevlax, Qax və Samux
C) Astara, Lerik, Masallı, Yardımlı və Lənkəran
D) Tərtər, Lerik, Ağstafa, İsmayıllı və Cəlilabad
E) Yardımlı, Salyan, Tovuz, Daşkəsən və Xanlar
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** İqtisadiyyat. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident kitabxanası http://files.preslib.az/projects/azerbaijan/gl4.pdf 19.10.2018

**55. Azərbaycan respublikasının ikinci böyük şəhəri hansıdır?**
A) Sumqayıt şəhəri
B) Gəncə şəhəri
C) Xankəndi şəhəri
D) Bakı şəhəri
E) Şirvan şəhəri
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** İqtisadiyyat. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident kitabxanası http://files.preslib.az/projects/azerbaijan/gl4.pdf 19.10.2018

**56. Gürcüstanla sərhəddə yerləşən inzibati rayonlarımız:**
A) Zaqatala, Şamaxı, Gəncə
B) Şəki, Bilasuvar, Salyan
C) Beyləqan, Neftçala
D) Balakən, Qax, Zaqatala
E) Qəbələ, Xudat, Qazax
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** İqtisadiyyat. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident kitabxanası http://files.preslib.az/projects/azerbaijan/gl4.pdf 19.10.2018

**57. Respublikamızın ən yüksək zirvəsi hansıdır?**
A) Şahdağ
B) Bazardüzü

C) Yarıdağ
D) Tufandağ
E) Bazaryurd
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** M.A Müseyibov. Azərbaycan fiziki coğrafiyası, Bakı-1998

**58. Naxçıvan bölgəsinin hansı inzibati rayonu Türkiyə ilə sərhəddə yerləşir?**
A) Sədərək
B) Culfa
C) Babək
D) Ordubad
E) Şahbuz
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** İqtisadiyyat. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident kitabxanası http://files.preslib.az/projects/azerbaijan/gl4.pdf 19.10.2018

**59. 1992-ci il noyabrın 21-də Heydər Əliyevin sədrliyi ilə Yeni Azərbaycan Partiyası yaradıldı:**
A) Bakıda
B) Naxçıvanda
C) Şamaxıda
D) Gəncədə
E) Sumqayıtda
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** http://www.yap.org.az/az/**23.10.2018**

**60. Aşağıdakı hadisələrdən biri 1991-1993-cü illərdə baş verməmişdir:**
A) Heydər Əliyevin Ali Sovetin sədri seçilməsi
B) Azərbaycan Respublikasının İslam Konfransı təşkilatına üzv qəbul edilməsi
C) Yeni Azərbaycan Partiyasının yaranması
D) Ermənistanla Azərbaycan arasında atəşkəsin elan edilməsi
E) "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nın qəbulu
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** İqtisadiyyat. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident kitabxanası http://files.preslib.az/projects/azerbaijan/gl4.pdf 23.10.2018

**61. Azərbaycan Xalq Cümhuriyyəti dövründə nəşr olunan qəzetlərə aid deyil:**
A) “Qurtuluş” qəzeti
B) “Yeni Müsavat” qəzeti
C) “İqbal” qəzeti
D) “Dirilik” qəzeti
E) “Açıq söz” qəzeti
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** Nəsiman Yaqublu. Cümhuriyyət Qurucuları, Bakı-2018

**62. Gəncə-Qazax iqtisadi rayonu hansı şəhərləri əhatə edir?**

A) Gəncə və Naftalan şəhərlərini
B) Tovuz və Neftçala şəhərlərini
C) Xankəndi və Yevlax şəhərlərini
D) Gəncə və Qazax şəhərlərini
E) Naftalan və Astara şəhərlərini
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** İqtisadiyyat. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident kitabxanası http://files.preslib.az/projects/azerbaijan/gl4.pdf 19.10.2018

**63. Respublikamızda "Milli Qurtuluş Günü" hər il təqvimin hansı günü qeyd edilir?**
A) 28 may
B) 17 noyabr
C) 15 iyun
D) 18 oktyabr
E) 9 may
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** Prezident kitabxanası. Dağlıq Qarabağ münaqişəsi. Bakı-2005

**64. Respublika tabeliyində olan şəhərləri müəyyən edin:**
A) Bakı, Gəncə, Mingəçevir, Şirvan, Şəki,
B) Bakı, Ağstafa, Naftalan, Abşeron, Şamaxı
C) Sumqayıt, Xankəndi, Neftçala, Masallı
D) Gəncə, Qax, Lənkəran, Ağsu, Qəbələ
E) Şəki Qazax, Yevlax, Balakən, Quba
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** İqtisadiyyat. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident kitabxanası http://files.preslib.az/projects/azerbaijan/gl4.pdf 07.11.18

**65. 26 fevral Xocalı Soyqırımı Günü elan edildi:**
A) Milli Məclisin 1994-cü il 24 fevral tarixli qərarına əsasən
B) Prezident Heydər Əliyevin 2005-ci il 24 fevral tarixli sərəncamına əsasən
C) Nazirlər Kabinetinin 1991-ci il 24 fevral tarixli qərarına əsasən
D) Prezident İlham Əliyevin 1996-cı il 24 fevral tarixli fərmanına əsasən
E) Rəyasət Heyətinin 1992-ci il 24 fevral tarixli qərarına əsasən
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** Qan yaddaşı
https://static2.president.az/media/W1siZiIsIjIwMTgvMDMvMDkveWtoZmkxaTd1X1Fhbl9ZYWRkYV9fQVpFLnBkZiJdXQ?sha=4225538870a52a50 23.10.2018

**66. Azərbaycan Respublikasının Konstitusiyasına aiddir:**
A) Ərazi iddiaları xalqa qarşı ən ağır cinayətdir
B) Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır
C) Azərbaycan Respublikasının Konstitusiyasına görə hakimiyyətin yeganə mənbəyi prezidentdir

D) 158 fəsildən ibarətdir
E) Respublikada Milli Məclisin qəbul etdiyi qanunlar ən yüksək hüquqi qüvvəyə malikdir
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**67. Aşağıdakı hadisələrdən hansı daha əvvəl baş vermişdir:**
A) 26 fevral Xocalı soyqırımı
B) Bişkek protokolunun imzalanması
C) Sədərək-Dilucu körpüsünün istifadəyə verilməsi
D) 20 Yanvar faciəsi
E) Yeni Azərbaycan Partiyasının yaranması
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** Prezident kitabxanası. Dağlıq Qarabağ münaqişəsi. Bakı-2005

**68. Ümummilli lider Heydər Əliyev Yeni Azərbaycan Partiyasının yaranmasından neçə il sonra ilk dəfə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir?**
A) 2
B) 1
C) 4
D) 3
E) 5
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** Prezident kitabxanası. Dağlıq Qarabağ münaqişəsi. Bakı-2005

**69. Azərbaycan Respublikasının müstəqilliyini tanıyan ilk 5 dövlət hansılardır?**
A) İran, Rusiya, Türkiyə, Türkmənistan, İsveç
B) ABŞ, İran, Belarusiya, Türkiyə, Gürcüstan
C) Türkiyə, Rumıniya, Pakistan, İsveçrə, İran
D) Belarusiya, Pakistan, Türkmənistan, ABŞ, İtalya
E) Özbəkistan, Türkiyə, Pakistan, İsveç, Qazaxıstan
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** http://modern.az/az/news/30001#gsc.tab=0 26.10.18

**70. Ümummilli lider Heydər Əliyevin ikinci prezidentliyi dövrünə aid tarixi hadisəni müəyyən edin:**
A) 20 yanvar faciəsinin törədilməsi
B) Bakı-Tbilisi-Ceyhan boru kəmərinin təməlinin qoyulması
C) Bişkek protokolunun imzalanması
D) Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul edilməsi
E) Yeni Əsrin müqaviləsinin imzalanması
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** https://president.az/azerbaijan/contract 27.10.18

**71. Aşağıdakı hadisələrdən hansı daha əvvəl baş vermişdir:**
A) Azərbaycan Respublikasının Avropa Şurasına üzv qəbul olunması
B) Neft Muzeyinin yaradılması
C) Azərbaycan Respublikası milli valyutasının dövriyyəyə buraxılması
D) Bakı-Tbilisi-Ceyhan boru kəmərinin çəkilişi ilə bağlı bəyannamənin imzalanması
E) Dağlıq Qarabağ Muxtar Vilayətinin ləğv edilməsi
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** Prezident kitabxanası. Dağlıq Qarabağ münaqişəsi. Bakı-2005

**72. Azərbaycan SSR-in hansı Kontitusiyasında ilk dəfə Azərbaycan dilinin dövlət dili olması öz əksini tapdı?**
A) 1921-ci il Kontitusiyasında
B) 1978-ci il Kontitusiyasında
C) 1927-ci il Kontitusiyasında
D) 1925-ci il Kontitusiyasında
E) 1937-ci il Kontitusiyasında
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** İradə Nuriyeva. Azərbaycan tarixi. Bakı-2015

**73. 1999-cu ilin noyabrında Bakı-Tbilisi-Ceyhan layihəsini dəstəkləmək, Qazaxıstan və Türkmənistan neftini bu layihəyə cəlb etmək məqsədilə hansı ölkələr arasında "İstanbul bəyannaməsi" imzalanmışdır?**
A) Azərbaycan,Türkiyə, Gürcüstan, İran, Qazaxıstan və Qırğızıstan
B) Azərbaycan, Gürcüstan, Türkiyə, Özbəkistan, Qazaxıstan və Türkmənistan
C) Azərbaycan,İran , Özbəkistan, Türkiyə və Gürcüstan
D) Azərbaycan, Türkiyə, ABŞ, Gürcüstan, Qazaxıstan və Türkmənistan
E) Azərbaycan, Gürcüstan, Böyük Britaniya, Qazaxıstan və Türkmənistan
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** İradə Nuriyeva. Azərbaycan tarixi. Bakı-2015

**74. Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul edilməsindən neçə il sonra Konstitusiya məhkəməsi yaradıldı?**
A) 17
B) 3
C) 68
D) 23
E) 9
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** İradə Nuriyeva. Azərbaycan tarixi. Bakı-2015

**75. 1992-ci ildə yaradılmış partiyanı müəyyən edin:**
A) “Ana vətən partiyası”
B) “Azərbaycan Liberal Partiyası”
C) “Sahibkarların Demokratik Partiyası”
D) “Azərbaycan Xalq Cəbhəsi Partiyası”

E) “Yeni Azərbaycan Partiyası”
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** İradə Nuriyeva. Azərbaycan tarixi. Bakı-2015

**76. Latın qrafikalı Azərbaycan əlifbasının bərpa olunması haqqında qanun qəbul edildi:**
A) 1989-cu ilin dekabrında
B) 1991-ci ilin dekabrında
C) 1995-ci ilin dekabrında
D) 2000-ci ilin dekabrında
E) 1997-ci ilin dekabrında
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** İradə Nuriyeva. Azərbaycan tarixi. Bakı-2015

**77. Türkdilli ölkələrin mədəniyyət səylərini birləşdirən beynəlxalq təşkilat necə adlanır?**
A) İSESKO
B) TÜDİFAK
C) TDMB
D) TÜRKSOY
E) TÜRKPA
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** İradə Nuriyeva. Azərbaycan tarixi. Bakı-2015

**78. Neçənci ildən ali məktəblərdə bakalavr və magistr pilləli təhsilə keçildi?**
A) 1991-ci ildən
B) 1989-cu ildən
C) 1993-cü ildən
D) 2005-ci ildən
E) 1999-cu ildən
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** İradə Nuriyeva. Azərbaycan tarixi. Bakı-2015

**79. “Heydər Əliyev” ordeni ilə ilk dəfə təltif olundular?**
A) Tahir Salahov və Rəcəb Tayyib Ərdoğan
B) İlham Əliyev və İhsan Doğramacı
C) Süleyman Dəmirəl və Abdullah Gül
D) Zeynəb Xanlarova və Mənsum İbrahimov
E) Ömər Eldarov və Nursultan Nazarbayev
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** İradə Nuriyeva. Azərbaycan tarixi. Bakı-2015

**80. Azərbaycan Respublikasının 2001-ci il və 2006-cı il tarixlərinə aid oxşarlığı müəyyən edin:**
A) Növbədənkənar prezident seçkilərinin keçirilməsi
B) Bakıda Dünya azərbaycanlılarının qurultayının keçirilməsi

C) Yoxsulluğun azaldılması sahəsində Dövlət Proqramının qəbul edilməsi
D) Milli Məclisə seçkilərin keçirilməsi
E) Konstitusiyaya dəyişikliklər edilməsinə dair referendumun keçirilməsi
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:**İradə Nuriyeva. Azərbaycan tarixi. Bakı-2015

**81. 1998-ci il sentyabrında İpək Yolunun bərpası üzrə beynəlxalq konfrans hansı şəhərdə keçirildi?**
A) Ankarada
B) Gəncədə
C) İstanbulda
D) Bakıda
E) Tiflisdə
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** İradə Nuriyeva. Azərbaycan tarixi. Bakı-2015

**82. Azərbaycan respublikasının XX əsrin 90-cı illərinə aid deyil:**
A) Azərbaycan Respublikasında ölüm cəzası ləğv olundu
B) Azərbaycan prezidenti vəzifəsi təsis edildi
C) Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verildi
D) Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında bəyannamə qəbul edildi
E) Heydər Əliyev Ali Sovetin Sədri seçildi
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:**İradə Nuriyeva. Azərbaycan tarixi. Bakı-2015

**83. Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının sədri kim olmuşdur?**
A) N. Usubbəyov
B) H. Ağayev
C) C.Hacınski
D) M.Ə.Rəsulzadə
E) M.Seyidov
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** İradə Nuriyeva. Azərbaycan tarixi. Bakı-2015

**84. Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinə daxildir:**
A) Dövlət sosial təminat proqramlarının həyata keçirilməsini təmin edir
B) Yerli vergiləri və ödənişləri müəyyən edir
C) AR Nazirlər Kabinetinə etimad məsələsini həll edir
D) Bələdiyyələrin hesabatlarını dinləyir
E) Dövlət təltifləri ilə təltif edir
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**85. Dünyada mexaniki üsulla ilk neft quyusu qazılmışdır:**
A) 1853-cü il Polşada

B) 1847-ci il Bibiheybətdə
C) 1848-ci il Balaxanıda
D) 1873-cü il Bibiheybətdə
E) 1857-ci il Rumıniyada
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** http://socar.az/socar/az/company/about-socar/history-of-socar-13.10.2018

**86. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən kimlərin seçilmək hüququ qanunla məhdudlaşdırıla bilməz?**
A) Hərbi qulluqçuların
B) Din xadimlərinin
C) Hakimlərin
D) İctimai təşkilatların nümayəndələri
E) Dövlət məmurlarının
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**87. 1970-ci illərin sonu 1980-ci illərin əvvəllərində aşkar edilmiş yataqlar sırasına daxil deyil:**
A) "Azəri"
B) "Çıraq"
C) "Kəpəz"
D) "Günəşli"
E) "Gürgan-dəniz"
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** http://socar.az/socar/az/company/about-socar/history-of-socar-13.10.2018

**88. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin yeni inzibati binası haqqında verilən fikirlərdən yanlış olanını müəyyən edin:**
A) SOCAR-ın elan etdiyi layihələndirmə müsabiqəsinin qalibi "Heerim Architects & Planners Co. Ltd" şirkəti olmuşdur
B) Bina Rixter şkalasına görə 9 ballıq zəlzələyə davamlıdır
C) Yeni inzibati binanın açılış mərasimi 2010-cu il oktyabrın 12-də olmuşdur
D) Hündürlüyü 200 metr olan bina 40 mərtəbədən ibarətdir
E) Binanın layihələndirilməsi ilə əlaqədar işlərə 2007-ci ildən başlanıb
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:**http://www.socar.az/socar/az/company/about-socar/socar-tower 13.10.2018

**89. Uyğunsuzluğu müəyyən edin:**
A)1991-ci il - "Azərineft" Dövlət Konserni
B) 1993-cü il -  Azərbaycan Respublikası Dövlət Neft Şirkəti
C) 1954-cü il - Azərbaycan SSR Neft Sənayesi Nazirliyi
D) 2003-cü il - "Azneft" İstehsalat Birliyi

E) 1965-ci il - Azərbaycan SSR Neftçıxarma Sənayesi Nazirliyi
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:**http://www.socar.az/socar/az/company/about-socar/history-of-socar13.10.2018

**90. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin hansı struktur vahidi Balaxanı-Sabunçu-Ramana yatağının işlənməsini həyata keçirir?**
A) Neft Kəmərləri İdarəsi
B) Heydər Əliyev adına Neft Emalı Zavodu
C) Neftqaztikinti tresti
D) Neftqazelmitədqiqatlayihə İnstitutu
E) "Azneft" İstehsalat Birliyi
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:**http://www.socar.az/socar/az/company/organization/azneft-production-union13.10.2018

**91. Azərbaycan Respublikası ərazisində təbii qazı təchizat nöqtələrindən qəbul edərək, paylanması və satışını həyata keçirən struktur vahid:**
A) "Azəriqaz" İstehsalat Birliyi
B) Qaz İxrac İdarəsi
C) Neftqaztikinti tresti
D) Qaz Emalı Zavodu
E) Neftqazelmitədqiqatlayihə İnstitutu
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad**:http://www.socar.az/socar/az/company/organization/azerigas-production-union 13.10.2018

**92. Ekologiya İdarəsinin əsas məqsədinə daxil deyil:**
A) SOCAR sistemində ekoloji durumun yaxşılaşdırılması
B) Sənaye tullantılarının utilizasiyası
C) Neft və qaz fontanlarının qarşısının alınması
D) Sənaye çirkləndiricilərinin müasir monitorinq metodlarının tətbiqi
E) Ekoloji münasibətlər üzrə əməkdaşlığın qurulması
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad**:http://www.socar.az/socar/az/company/organization/environmental-department13.10.2018

**93. Azərbaycan Respublikası Milli Məclisinin say tərkibi:**
A) 158 deputat
B) 125 deputat
C) 21 deputat
D) 12 deputat
E) 55 deputat
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**94. Dərin özüllər hansı struktur vahidin əsas məhsuludur?**
A) Azneft İstehsalat Birliyinin
B) Kompleks Qazma İşləri Trestinin
C) Neft Kəmərləri İdarəsinin
D) H. Əliyev adına Dərin Özüllər Zavodunun
E) Heydər Əliyev adına Neft Emalı Zavodunun
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** http://www.socar.az/socar/az/company/organization/heydar-aliyev-baku-deep-water-jacket-factory 13.10.2018

**95. 1872-ci ildə Balaxanı mədənlərindən hasil edilən neftin Bakı neftayırma zavoduna çatdırılması məqsədi ilə inşa edilmişdir?**
A) İlk neft kəməri
B) Neft Kəmərləri İdarəsi
C) İlk neft quyusu
D) H.Əliyev adına Neft Emalı Zavodu
E) Neft Daşları
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:**http://www.socar.az/socar/az/company/organization/oil-pipelines-department 16.10.2018

**96. İlk dəfə neftin boru kəməri ilə nəqli üsulundan hansi ölkədə istifadə olunmuşdur?**
A) Malayziyada
B) Azərbaycanda
C) Çində
D) Polşada
E) İranda
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:**http://www.socar.az/socar/az/company/organization/oil-pipelines-department 16.10.2018

**97. "Elmi Tədqiqatlar" və "Neftqazlayihə" İnstitutlarının birləşməsi nəticəsində yaradılmışdır:**
A) "Neftqazelmitədqiqatlayihə" İnstitutu
B) Bakı Ali Neft Məktəbi
C) Geologiya ve Geofizika İnstitutu
D) Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsi
E) Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:**http://www.socar.az/socar/az/company/organization/oil-and-gas-research-and-design-institute 16.10.2018

**98. Azərbaycan Respublikasının yanacaq istehsalı sektorunda ən iri və qabaqcıl müəssisəyə çevrilmiş zavod hansıdır?**
A) Qaz İxrac İdarəsi

B) Heydər Əliyev adına Neft Emalı Zavodu
C) Qaz Emalı Zavodu
D) Azneft İstehsalat Birliyi
E) Azərikimya İstehsalat Birliyi
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:**http://www.socar.az/socar/az/company/organization/heydar-aliyev-oil-refinery16.10.2018

**99. Sərmayələr İdarəsinin fəaliyyətinə daxildir:**
A) Neft və neft məhsulların səmərəli satışını həyata keçirir
B) İqtisadi göstəricilər üzrə təhlillərin aparılmasını həyata keçirir
C) İnformasiya təhlükəsizliyini təmin edir
D) İdarəçilik, təsərrüfat, istehsalat fəaliyyətini həyata keçirir
E) Sərmayələr üzrə hesabat və təhlil işini təşkil edir
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:**http://www.socar.az/socar/az/company/organization/investments-division 16.10.2018

**100. SOCAR-ın Mərkəzləşdirilmiş Mətbəəsi hansı idarədə fəaliyyət göstərir?**
A) SOCAR, Baş ofis
B) Azneft İstehsalat Birliyi
C) Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi
D) İnformasiya Texnologiyaları və Rabitə İdarəsi
E) Təlim Tədris və Sertifikatlaşdırma İdarəsi
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:**http://www.socar.az/socar/az/company/organization/it-and-communications-department16.10.2018

**101. Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş üzrə işləri yerinə yetirmək üçün yaradılmışdır:**
A) “Bibiheybətneft” Neftqazçıxarma İdarəsi
B) Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti
C) Azneft İstehsalat Birliyi
D) BP Eksploreyşn Limited
E) Azərbaycan (Ey Si Ci) Limited
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:**http://www.socar.az/socar/az/activities/production/azeri-chirag-deep-water-gunashli 30.10.2018

**102. Dövlət quruculuğu sahəsində ilk ciddi addımlarını atan Azərbaycan Cümhuriyyəti neçə ay fəaliyyət göstərə bildi?**
A) 23 ay
B) 6 ay
C) 27 ay

D) 24 ay
E) 12 ay
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** Vaqif Priyev. Azərbaycanın tarixi-siyasi coğrafiyası, Bakı-2006

**103. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sədrliyi ilə hazırlanmış Azərbaycan Respublikasının Konstitusiya layihəsi nə vaxt ümumxalq səsverməsində qəbul edilmişdir?**
A) 27 noyabr 1995-ci il
B) 12 noyabr 1995-ci il
C) 18 oktyabr 1991-ci ildə
D) 9 noyabr 1918-ci il
E) 17 noyabr 1988-ci ildə
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**104. Azərbaycan Respublikası Milli Məclisinin hər çağırışının seçkiləri hansı müddətdən bir keçirilir?**
A) 2
B) 7
C) 3
D) 5
E) 4
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**105. 31 mart "Azərbaycanlıların Soyqırımı Günü" elan edildi:**
A) 2003-ci il martın 26-da
B) 1998-ci il martın 26-da
C) 1991-ci il martın 26-da
D) 2008-ci il martın 26-da
E) 1989-cu il martın 26-da
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** Qan yaddaşı
https://static2.president.az/media/W1siZiIsIjIwMTgvMDMvMDkveWtoZmkxaTd1X1Fhbl9ZYWRkYV9fQVpFLnBkZiJdXQ?sha=4225538870a52a50 23.10.2018

**106. Uyğunsuzluğu tapın:**
A) Qanunvericilik hakimiyyəti - AR Milli Məclisi
B) Yerli özünüidarəetmə - Bələdiyyələr
C) Dövlət hakimiyyəti - AR Prezidenti
D) Məhkəmə hakimiyyəti - AR məhkəmələri
E) İcra hakimiyyəti - AR Prezidenti
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**107. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən vətəndaşların əsas vəzifələrindən biridir:**
A) Ana dilindən istifadə
B) Tarix və mədəniyyət abidələrini qorumaq
C) Şərəf və ləyaqətin müdafiəsi
D) Cəmiyyətin və dövlətin siyasi həyatında iştirak
E) Siyasi sığınacaq
**Testin çətinlik dərəcəsi:** orta
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**108. Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli istiqlal ideyalı mətbuat orqanlarına daxil deyil:**
A) İstiqlal
B) Azərbaycan
C) Gənclər Yurdu
D) Müsəlmanlıq
E) Əkinçi
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** Nəsiman Yaqublu. Cümhuriyyət Qurucuları, Bakı-2018

**109. Azərbaycan Respublikası Prezidentinin yuxarı icra orqanıdır:**
A) Nazirlər Kabineti
B) Milli Məclis
C) Bələdiyyələr
D) İctimai Təşkilatlar
E) Ali Məhkəmə
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**110. Konstitusiyasına görə pul nişanlarının tədavülə buraxılması və tədavüldən çıxarılması hüququ hansı orqana mənsubdur?**
A) Milli Məclisə
B) Maliyyə Nazirliyinə
C) Maliyyə Bazarlarına Nəzarət Palatasına
D) Mərkəzi Banka
E) Nazirlər Kabinetinə
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**111. Konstitusiyaya əsasən Azərbaycan Respublikasında ən yüksək hüquqi qüvvəyə malikdir:**
A) Azərbaycan Respublikasının Konstitusiyası
B) Azərbaycan Respublikasının Qanunvericilik Aktları
C) Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarları

D) Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarları
E) Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamları
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** Azərbaycan Respublikasının Konstitusiyası

**112. 1948-1953-cü illərdə həyata keçirilən azərbaycanlıların deportasiyası zamanı ermənilərin xüsusilə diqqət mərkəzində saxladıqları məsələ nə idi?**
A) Azərbaycan SSR-nin bütün ali təhsil məktəbləri və texnikumları tələbələrinin Dağlıq Qarabağ Muxtar Vilayətindən olan ermənilərin təşkil etməsi
B) İqtisadi, sosial və mənəvi cəhətdən güclü, strateji əhəmiyyətli azərbaycanlı yaşayış məntəqələrinin boşaldılması
C) Ermənistandan köçürülən Azərbaycanlıların Dağlıq Qarabağ ərazisində məskunlaşması
D) İlkin olaraq Kür-Araz ovalığının boşaldılması
E) Azərbaycan yaşayış məntəqələrinin adlarının dəyişdirilməsi, təhsil və mədəniyyət ocaqlarının bağlanması, rayonların birləşdirilməsi
**Testin çətinlik dərəcəsi:** mürəkkəb
**İstinad:** Prezident kitabxanası. Dağlıq Qarabağ münaqişəsi. Bakı-2005

**113. Respublikamızda çayçılığın inkişaf etdiyi iqtisadi rayonu müəyyən edin:**
A) Yuxarı Qarabağ
B) Gəncə-Qazax
C) Şəki-Zaqatala
D) Quba-Xaçmaz
E) Lənkəran-Astara
**Testin çətinlik dərəcəsi:** asan
**İstinad:** M.A Müseyibov. Azərbaycan fiziki coğrafiyası, Bakı-1998